2018-ci ilin yanvar-aprel aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 322 milyon 695 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Sənaye istehsalının 96,4 faizi malların, 3,6 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 15 milyon 396 min 500 manatlıq, qeyri-dövlət sektorunda 307 milyon 298 min 500 manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar-mart aylarında muxtar respublikanın sənaye müəssisələrində 16407 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artaraq 377,3 manat olmuşdur.